DÜNYA XƏBƏRLƏRİ

Tbilisidə partlayış olan binadan 6 nəfərin meyiti çıxarılıb

Noyabr 20, 2026



Bina

Noyabrın 19-da Tbilisinin Kvemo-Poniçala rayonunda yaşayış binasında baş verən partlayışda altı nəfər həlak olub. Onların hamısının meyiti dağıntılar altından çıxarılıb. Partlayışa təbii qaz sızmasının səbəb olduğu bildirilir.

Həlak olanlar arasında azyaşlı uşaq da var.

Daxili işlər naziri **Sulxan Tamazaşvili** jurnalistlərə xilasetmə əməliyyatının faktiki olaraq başa çatdığını bildirib.

Xilasedicilər dağıntılar altından üç yaşlı uşağı sağ çıxarıblar. Xəstəxanaya çatdırılan uşağın həyatı üçün təhlükə yoxdur.

Hadisə noyabrın 19-da səhər saatlarında qeydə alınıb.

Tbilisi meri **Kaxa Kaladze**nin sözlərinə görə, partlayışdan sonra binanın iki girişində problemlər yaransa da, qalan hissəsi yaşayış üçün yararlıdır.

Hadisə ilə əlaqədar tikinti işləri aparılarkən təhlükəsizlik qaydalarının pozulması maddəsi ilə istintaqa başlanılıb.

"Tbilisi Energy" qaz şirkətinin rəsmisi partlayış baş verən mənzilə əvvəlcədən baxış keçirməyin mümkün olmadığını açıqlayıb. Buna mənzil sahibinin Tbilisidə olmaması səbəb göstərilib.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur